# KƏLAĞAYI


Rəna İbrahimbəyova
*Bakı Dövlət Universiteti,*
*Gender və tətbiqi psixologiya kafedrası,*
*psixologiya üzrə fəlsəfə doktoru, professor*
*e-mail: ibrren@gmail.com*

Cəlil Tariverdiyev
*Azərbaycan Rəssamlar İttifaqının üzvü*
*e-mail: celiltariverdiyev@gmail.com*

Zəhra Müller Tariverdi
*müəllim BMT Vyana*
*e-mail: zmtariv@gmail.com*


**Açar sözlər:** *kəlağayı, ipək, baş örtüyü, əl hasilatı, mədəni fenomen, naxışlanma, simvollar*



Hazır kəlağayıların qurudulması





Konsepsiyanın predmeti Azərbaycanda qadın geyiminin bir detalı olan kəlağayı, məqsədi isə kəlağayının mədəni fenomen kimi əhəmiyyətinin müəyyənləşdirilməsi və əsaslandırılmasıdır. Bununla bağlı, həm tarixi baxımdan, həm də müasir və gələcək inkişaf kontekstində kəlağayının funksional, texnoloji, struktur və estetik xüsusiyyətləri müəyyən edilmiş və nəzərdən keçirilmişdir.

Konsepsiyanın məqsədlərinə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

1. Kəlağayının digər oxşar məmulatlardan fərqli xüsusiyyətlərini müəyyən etmək;
2. Kəlağayının tarixi köklərini tapmaq;
3. Kəlağayının istehsal texnologiyasını araşdırmaq;
4. Kəlağayının işarə-simvol xüsusiyyətlərini təhlil etmək;
5. Kəlağayının gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək.

Kəlağayının digər oxşar məmulatlardan fərqləndirən xüsusiyyətlərini aşkar etmək üçün, ilk növbədə, onun mahiyyətini araşdırmaq lazımdır. Azərbaycanda çox az adam tapılar ki, bu haqda məlumatlı olmasın. Lakin mövcud ədəbiyyatda kəlağayının tam elmi təhlilini tapmaq mümkün deyildir. Halbuki, ipəkçilik (1), Azərbaycan incəsənətinin (2) müxtəlif növlərinin, xüsusilə də təsviri sənət və xalçaçılığın (3) təhlilinə həsr edilmiş məxəzlərdə kəlağayının adı çəkilir.

Mövcud olan məlumatlardan istifadə edərək, eləcə də əhali arasında keçirilən sorğunun cavablarını ümumiləşdirməklə, belə bir nəticəyə gəlmək olar ki, kəlağayı əsrlər boyu Azərbaycanda geniş yayılmış qadın geyiminin ayrılmaz hissəsi olan baş örtüyünün adıdır.

Kəlağayı xalqın məişət xüsusiyyətlərini, dünyagörüşünü, mənəvi və estetik dəyərlərini özündə ehtiva etmişdir. Bu faktı əsaslandıran sübutlar təqdim edilən konsepsiyanın məğzini təşkil edir.

## KƏLAĞAYI NƏDİR?

Dünyada qadınların istifadə etdikləri baş örtükləri sayca çoxdur. Azərbaycanda da onların bir neçə növü mövcuddur. Məsələn, örpək, şal, çarşab, çadra, kəlağayı. Onları müqayisə etsək, tədqiqat obyekti olan kəlağayı üçün zəruri və kifayət qədər xüsusiyyət aşkar etmək olar. Birincisi, **materialdır**. Kəlağayı təbii ipəkdən toxunmuş, "kəlağayı ipəyi" adlanan parçadan hazırlanmalıdır. Bunun üçün 2-3 ipək telindən eşilmiş, boyanmamış ipək sapdan istifadə olunur. Belə parçanın sıxlığı az olmalıdır (28-30 sm). İkincisi, **formadır**: kəlağayı, bütöv bir parçadan toxunmuş kvadrat formalı olmalıdır. Üçüncüsü, **ölçüdür**: kəlağayı böyük, 140-160 sm ölçüdə olmalı, lakin qadının bədənini bütünlüklə

örtməməlidir. Onun törəməsi - kəlağayının ¼ hissəsi olan "bölmə"dir. Dördüncüsü, **rəng çalarıdır**: ənənəyə görə, kəlağayını ya bütövlükdə, yaxud da bütün sahəni ağ rəngdə saxlayaraq, yalnız onun haşiyələnmiş hissəsini (haşiyəsini) (4) boyayırlar. Beşincisi, **naxışlanmadır**: kəlağayının naxışları "basmanaxış"la (5) - üzərində naxışlar işlənmiş ağac qəliblərlə yerinə yetirilməlidir. Bəzən kəlağayı xüsusi qələmlər vasitəsilə naxışlanır. Bu üslub dünyada "isti batik" texnikası kimi tanınır. Kəlağayının yalnız haşiyəsi, yaxud da bütün sahəsi naxışlana bilər. Nəhayət, altıncı **istifadəsi – sosial əhəmiyyəti:** kəlağayıdan qədim zamanlardan həm gündəlik məişətdə, həm də xüsusi hallarda - toylarda, matəmlərdə, bayramlarda istifadə edirdilər. Hər bir hadisə üçün, bu və ya digər mərasimin xüsusiyyətlərinə və əhəmiyyətinə uyğun olaraq, kəlağayının örtülməsinə dair konkret göstərişlər mövcud idi. Bu zaman kəlağayının rəng ahəngi, naxışın növü, rəsm quruluşu, bağlama üsulu, sahibəsinin yaşı nəzərə alınırdı.

Kəlağayının yuxarıda sadalanan xüsusiyyətləri ayrı-ayrılıqda digər örtüklərə də xasdır. Belə ki, "örpək" də kəlağayı kimi kvadratşəkilli olur, lakin onun ölçülərinin normativləri yoxdur. O, kəlağayıdan fərqli olaraq, həm bütöv parçadan, həm də ayrıca ipək parçadan da hazırlana bilər. Örpəyin naxışlandırılmasında "basmanaxış" üslubundan heç vaxt istifadə edilməmişdir; adətən tikmə üsulu ilə ağ və ya rəngli ipək saplarla, zəngin ailələrdən olan xanımlar üçün isə qızıl və ya gümüşlə (təkəlduz) işlənir. Bu da, kəlağayıdan fərqli olaraq, onu sahibəsininn maddi vəziyyətini dərhal müəyyən etməyə imkan verir. Həmçinin, örpəyin ipəkdən toxunmuş 2-4 sıralı torlu ("xanələr») saçağı olur.



1

Digər yaylıq, "şal" örpəyə məxsus xüsusiyyətlərin hamısına malik ola bilər. Lakin o, ipəkdən deyil, yundan və yaxud da hər hansı digər xammaldan hazırlanır. Bu, artıq basmanaxış naxışlandırma texnikasının istifadəsinə məhdudiyyətdir; çünki basmanaxış üsulu çox isti (80 dərəcəyə qədər) suyun işlənməsini tələb edir. Bu da yun üçün yolverilməzdir.

İslam dininin qaydalarına görə, zəruri hesab edilən "çarşab" və "çadra" üçün müxtəlif parçalardan, o cümlədən də ipəkdən istifadə oluna bilər. Lakin kəlağayı ipəyindən fərqli olaraq, bu baş örtükləri üçün ipək daha sıx toxunmalıdır. Rusiyada orta əsrlərdə "şemaxeyka" kimi tanınmış "qanouz" növlü ipəyi nümunə göstərmək olar. Ən başlıcası isə, qadın başdan ayağa kimi ona bürünməli idi. Əllərini və üzünün bir hissəsini örtməli idi. Bu növ örtük kvadrat yox, düzbucaqlı və ya trapesiya formasında, 160x200 sm ölçülərində olmalıdır. Ölçü sahibənin boyundan asılı olaraq dəyişilə bilərdi. Bu örtüklərin rəng çalarları da məhduddur: o qara, ya ağ, yaxud da tünd göy rəngdə olmalı idi.

## KƏLAĞAYININ TARİXİNDƏN

Kəlağayının tarixi, Böyük İpək yolunda Şimal-la Cənub, Qərblə Şərq arasında əlaqələndirici, körpü olan və əsrlər boyu ipəkçilik ölkəsi kimi məşhurlaşmış Azərbaycanda ipəkçiliyin inkişafı ilə sıx bağlıdır. Tarixi faktlar təsdiqləyir ki, Azərbaycanda baramaçılıqla təxminən iki min ildən(6) artıqdır ki, məşğul olurlar. Çox qədim zamanlardan burada yetişdirilən baramadan çox zərif ipək saplar əyirilmişdir. Bu iplərdən toxunan gözəl parçalardan nəfis məmulatlar istehsal edilmişdir.

Bu barədə antik məxəzlərdə də məlumat verilir. (7) Azərbaycana səyahət etmiş Əl-İstəhri, Əl-Muqəddəsi (X əsr) və Marko Polo (XIII əsr) kimi səyyahların yol qeydlərində ipək və ipəkdən hazırlanan məhsullar haqqında qeydlərə rast gəlinir. Övliya Çələbi (XVII) ipəkdən istifadə edilməsi barədə yazırdı ki, "Şəkidə, üzümlüklər arasında və bağlarda tut ağacları becərilir və tayı-bərabəri olmayan ipək hasil edirlər" və təkcə Şirvan bölgəsindəki Mahmudabadda "... minlərlə dəvə yükü ipək" istehsal edilir. (8)





2

Müxtəlif tarixi dövrlərdə, hətta böhranlı onilliklərdə belə, Şamaxı baramaçılığın mərkəzi olaraq qalırdı. N.N.Şavrovun (9) məlumatlarına əsasən, Şirvan ipəyi ilə zəngindir, köhnə Şamaxıdan ipək məmulatları böyük miqdarda Dərbəndə gətirilirdi. Şuşada 5 baramaçılıq emalatxanası olduğu halda, Şamaxı qəzasında 107 təsərrüfat var idi; onlardan da 46-ı Şamaxıda, 11-i Basqalda, 4-ü isə Mücidə yerləşirdi. Digər kəndlərdə isə 45 təsərrüfat mövcud idi. Basqal və Mücidəki təsərrüfatlar daha böyük əhəmiyyət kəsb edirdi. Basqalda 220-dən artıq qadın baramanın açılması ilə, 700 usta və 100 şagird *darayı, mov, xasxirmə, cəlişi, namazı, tatınlıq, qanovuz* kimi müxtəlif ipək parçalarının istehsalı ilə məşğul olmuşlar. Rusiyada qanovuz növlü ipək parça ("şemaxeyka") xüsusilə məşhur idi. Lakin kəlağayı ipəyi daha çox yayılmışdı.

XVII əsrin 30-cu illərində Şamaxıya Şah I Səfinin yanına gəlmiş Qolştin səfirliyinin nümayəndəsi Adam Oleari yazırdı ki, "şəhər sakinləri başlıca olaraq ipəyin əyirilməsi, toxuma və ipək saplarla, kağızla tikmələrlə məşğul olurlar". (10) XVI-XVII əsrin II yarısından başlayaraq, Ordubad və Culfa (Naxçıvan) ipəklə ticarət edən ən iri mərkəzlər idi. Buradan da ipək Venesiyaya, Marselə, Amsterdama, İstanbula, Hələbə ixrac edilirdi. XVII əsrdə Hollandiya və İngiltərə kimi nəhəng, inkişaf etmiş dövlətlər Azərbaycanda, Gilanda istehsal olunan xam ipəyin ən böyük alıcıları idilər. Həmin ölkələrin ipəkçilik sənayesi üçün bu amil mühüm əhəmiyyət kəsb edirdi. (11)

XVIII əsrdə I Pyotr ipək manufakturasını yaratdı. Bu manufakturanı xammalla Şamaxı şəhəri təchiz edirdi. 1714-cü ildə ipək toxuculuğu işini müstəqil və əsaslı surətdə öyrənən Milyutin ipəkçilik fabriki təsis edir. 1836-cı ildə isə "İpəkçiliyin və ticarət sənayesinin yayılması Cəmiyyəti" Nuxa (12) yaxınlığında ipəkçilik məktəbi təşkil edir. Bu dövrdə Şəki Şamaxını qabaqlayaraq ipəkçiliyin inkişafında birinci yerə çıxır. Qarabağ və Quba bu cərgədə növbəti yerləri bölüşdürürdülər.

XIX əsrin 50-ci illərində "Qafqaz" qəzeti yazırdı: "Şamaxı quberniyasından Moskvaya və Rusiyanın digər quberniyalarına, hətta xarici ölkələrə belə 29 min pud ipək və ipək məmulatları göndərilirdi. (13) Bundan başqa, yerli əhali ipəkdən və müxtəlif ipək geyimlərdən geniş istifadə edir". Şirvanda (Şamaxıda) olmuş, rusiyalı həvəskar rəssam, sənətşünas, imperator sarayının ober-hofmeysteri, İmperator Rəssamlıq Akademiyasının vitse-prezidenti Q.Q.Qaqarinin rəsmləri əyani şəkildə deyilənləri təsdiq edir. Ə.Sumbatzadənin məlumatlarına əsasən, qədim dövrlərdən Şirvanda baramaçılıq müəssisələrinin mövcud olmasına baxmayaraq, sayı 650-yə çatan kustar və manufaktura qalmış, burada ipəyin sarılması heç vaxt sənaye və fabrik–zavod istehsalı səviyyəsində olmamışdır. Burada hər yerdə ipək toxuculuğu və aşılanması ilə məşğul olurdular. (14) Bunlar arasında ən geniş yayılmış məmulat kəlağayı idi.

Kəlağayı Şirvanın (Şamaxı, Basqal, Müci) şəhər və kəndlərində, Bakıda (Abşeron), Şəkidə, Gəncədə, Qarabağda, Qubada, Ordubadda (Naxçıvan), Təbrizdə hazırlanırdı. Bərdə və Gəncə kimi şəhərlər orta əsrlərdə və daha əvvəl ipək, kəlağayı ticarətinin geniş təşəkkül tapdığı mərkəzlər olmuşlar.

1. Bişmiş ipəyin yuyulması
2. Qədim toxucu dəzgahı.



3

İpəkçilik azərbaycanlıların etnik mədəniyyətinə dərin kök salmışdır. Azərbaycanlılar harda yaşamalarından asılı olmayaraq, orada baramaçılıqla məşğul olurdular. Hətta başqa ölkələrə köçdükdə belə, onlar adətən, həm baramadan ipək alınması, həm də müxtəlif ipək məmulatların hazırlanması kimi ipəkçilik mədəniyyətini yaşadıqları bölgələrə gətirmişlər. Eyni zamanda onlar həm də özlərinin etnik-mədəni məişət və estetik tələbatlarını təmin edərək möhkəm, yüngül və rəngarəng ipək parçalar istehsal edirdilər. Onlar arasında mühüm yeri, qadın baş örtüklərinin əsasını təşkil edən ipək-kəlağayı tuturdu.

İpək kəlağayılara həmişə yüksək tələbat olmuşdur. Kiçik ev emalatxanalarında əllə istehsal olunan kəlağayıların parçası həm gözəlliyi, həm də keyfiyyəti ilə fərqlənirdi. Ailənin bütün üzvləri bu işlə məşğul olurdular və təbii ki, boyama sirləri və naxışlanmanın dilini bilirdilər. Təsadüfi deyildir ki, Azərbaycanın ipək məmulatları, o cümlədən də bənzərsiz kəlağayıların fərdi yaradıcılıq məhsulu kimi, XIX-XX əsrlərdə keçirilən beynəlxalq sərgilərdə müxtəlif mükafatlara layiq görülmüşdür. Bu gün 100 il və daha əvvəl hazırlanmış kəlağayılara baxanda, onların harada və kim tərəfindən hazırlandığını dəqiqliklə demək olar.

Kəlağayı örtmüş Azərbaycan xanımının obrazı Azərbaycan folklorunda, ədəbiyyatında və yaxud təsviri sənət nümunələrində ənənəvi bir hal olmuşdur. Sovet dövründə çadraya qarşı qoyulan qadağa kəlağayıdan yan keçmişdi; lakin kəlağayılardan istifadə nəzərəçarpacaq dərəcədə azalmışdı. Kəlağayı, qadın geyiminin atributu kimi, əsasən kənd yerlərində saxlanılmış, şəhərlərdə isə ondan tamamilə imtina edilmişdir. Bununla belə, örtülməsini rahatlaşdıran bir sıra xüsusiyyətləri və istifadəsinin ənənəviliyi həmin dövrdə kəlağayı istehsalının davam etdirilməsinə imkan yaradırdı. Demək olar ki, Azərbaycanın hər bir bölgəsində mövcud olan iri toxuculuq fabriklərində çoxlu miqdarda, lakin, bir qayda olaraq, şablon və standartlar üzrə kəlağayı istehsal olunurdu. Naxışlanmanın bu və ya digər variantları, etnik özünəməxsusluğun tarazlanmasına, kəlağayıda milli ünsürlərin «nisbəti»nə ciddi nəzarət edən, sərt ideoloji prinsipləri həyata keçirən bədii şuralarda təsdiqlənirdi. Beləliklə, Pavlovposadda güllü naxışlı şallar meydana gəldi. Üstəlik, 80-ci illərdə "kəmiyyət göstəricilərinə görə, planın yerinə yetirilməsi naminə naxışları sadə kompozisiyalı yaylıqlar hazırlanır, iriölçülü ştamplardan geniş istifadə olunurdu. Kolorit baxımından rəngarənglik az idi". Məqalənin müəllifinin fikrincə, bütün bunlar "ustanı kəlağayının ənənəvi hazırlanma sənətində bir sıra ən yaxşı keyfiyyətlərin inkişaf etdirilməsindən uzaqlaşdırırdı". (15) Həmin dövrdə bu ənənəvi məşğuliyyətin ailə kökləri barədə danışmaq müsbət hal kimi qiymətləndirilmirdi. Hamı fabrikdə çalışırdı və məhsul anonim xarakter alırdı. Parçanın keyfiyyəti ildən-ilə pisləşirdi və o dövrün dəbi kəlağayını tamamilə inkar edirdi.

Sovet sistemi dağıldıqdan sonra Azərbaycanda ipəkçilik tam tənəzzülə uğradı və ötən əsrin 90-cı illərində kəlağayının istehsalı demək olar ki, dayandırıldı. XX əsrin sonlarında kəlağayı məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Bu da, praktiki olaraq, əsrlər boyu formalaşmış, tarixən milli mentalitetin əlaməti olan baş örtüyünün hazırlanma və istifadə ənənəsinə son qoyurdu.

Məhz bu zaman ölkə prezidenti Heydər Əliyev ipəkçiliyin inkişafının zəruriliyini böyük uzaqgörənliklə qeyd etmişdi. "İnkişaf" Elmi Mərkəzi UNDP-nin (BMT-nin İnkişaf Proqramı) bu fikrə əsaslanaraq, "Gender inkişafda" layihəsi çərçivəsində irəli sürülmüş ipək istehsalının bərpası və kəlağayı istehsalına başlamaq təklifini dəstəkləmişdi.



Bu, bir tərəfdən əl əməyinin inkişafı, məşğulluğun təmin edilməsi və əhalinin gəlirlərinin artırılması üçün ən qısa yol (dünya təcrübəsi bunu təsdiq edir), digər tərəfdən isə qədim mədəni ənənənin, kəlağayı istehsalının bərpası və inkişafında nəcib, xeyirxah addım ola bilərdi. Yaponiyanın Azərbaycandakı səfirliyinin, İsmayıllı və Şəki rayonlarının İcra Hakimiyyətlərinin, şəxsi resursların ("JT" Şirkəti) dəstəyi ilə 2001-2003-cü illərdə buna nail olundu. Xalq sənətkarlığının bütün texnoloji tələblərinə riayət edilməklə, eləcə də struktur və estetik xüsusiyyətlərini saxlamaqla kəlağayının kustar istehsalı bərpa edilmişdir. Lakin həmin vaxtadək kəlağayı artıq əsaslı surətdə unudulmuşdu. Nə yaşlı, nə də gənc nəsil müasir geyim baxımından kəlağayını qəbul etmirdi. Üstəlik, yerli bazar ucuz xarici yaylıqlarla doldurulmuşdu. Bu yaylıqlar çevik əcnəbi istehsalçılar tərəfindən milli naxışlarla bəzədilirdi.

Kəlağayının tamamilə yoxa çıxma təhlükəsi yarandığı bir zamanda "İnkişaf" Elmi Mərkəzi "Kəlağayı" informasiya kampaniyası layihəsini işləyib hazırladı. Bu layihə Avrasiya Fondu, eləcə də amerikalı Syuzen və Cerri Braunlar tərəfindən dəstəkləndi. 2004-cü ildə "Kəlağayı"ya dair kataloq və klip ictimaiyyətə təqdim olundu, 2005-ci ildə Azərbaycan tarixində ilk dəfə olaraq kəlağayı sərgisi keçirildi. Basqalda (16) naxışlanmış və boyanmış nümunələr bu sərgidə nümayiş etdirildi. Sonra isə öz toxucuları ilə məşhur olan Şəkinin İpək Mərkəzində yaradılmış kəlağayılar «Kəlağayıçı» adlı şəhərcikdə göstərildi. Onların üzərində həm qədim, həm də müasir (müasir Azərbaycan rəssamları T.Ağababayeva, İ.Kostina, İ.Zeynalova, F.Məmmədova və s. tərəfindən təklif edilmiş) naxışlar təsvir edilmişdi.



4

Bununla yanaşı, Azərbaycan dekorativ-tətbiqi sənətinin predmeti olan kəlağayı üzrə elmi-tədqiqat işləri aparılırdı. Bu prosesdə məlum oldu ki, tətbiqi sənətin toxuculuq və xalçaçılıq sahələrinin inkişafına dair mənbələrdə kəlayağı haqqında pərakəndə halda informasiyaya rast gəlinsə də, bu sahədə elmi-tədqiqat işləri olduqca azdır. Kəlağayının qadın geyiminin bir hissəsi kimi təsnifatı praktiki olaraq yoxdur. Kəlağayıda istifadə olunan naxışlar, onların quruluşu, məna təhlili də mövcud deyil. Elmi ədəbiyyatla tanışlıq, peşəkar kəlağayıçıların davamçıları ilə söhbətlər, hazırda fəaliyyət göstərən ustaların əl işləri üzərində müşahidələr kəlağayının həm hazırlanmasına, həm də istifadəsinə olan tələbləri müəyyənləşdirməyə imkan verdi.



5

2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları kiçik müəssisələrin istehsal etdikləri məhsullar üzrə Şamaxıda keçirilən sərgini ziyarət etmişdi. "İnkişaf" EM, "CahangirT" Firmasının, Basqaldakı və Şəkidəki İpək Mərkəzlərinin nümayəndəsi kimi C.Tariverdiyev nümayiş etdirilən kəlağayı barədə danışmış və görülmüş işləri əks etdirən «Bəslənən ipək olar» (17) adlı kitabı cənab prezidentə təqdim etmişdir. Yaradıcılıq işlərinə cənab prezident tərəfindən verilən müsbət qiymət hamını ruhlandırmış və tədqiqat işinin daha da dərindən aparılmasına, kəlağayı istehsalının inkişaf etdirilməsinə zəmin yaratmışdı.

**3.** Boyama prosesi
**4.** Təbii rəngin alınması
**5-6.** Basmanaxış qəlibləri



## KƏLAĞAYININ HAZIRLANMASI

Kəlağayının hazırlanması mürəkkəb, çox zəhmət tələb edən və olduqca spesifik bir prosesdir.

Bu proses dörd tamamilə fərqli fəaliyyət mərhələlərindən ibarətdir. Birincisi, ipək parçanın hazırlanması, toxunmasıdır. İkincisi, ştampların - qəliblərin hazırlanmasıdır. Üçüncüsü, parçanın səthinə naxışların vurulması - basmadır. Və nəhayət dördüncüsü, boyamadır. Bu fəaliyyət mərhələlərinin hər biri də, öz növbəsində, müxtəlif işlərdən ibarətdir. Məsələn, özülün yığılması üzrə hazırlıq işlərini nəzərdə tutan **toxuma** ilə ənənəvi olaraq "tərrahlar" məşğul olmuşlar, sonra isə məhz toxuma ilə "toxucular" məşğul olurdular. Ştampların (qəliblərin) **hazırlanması,** taxta qəliblər üçün müəyyən ağac növlərinin dəqiqliklə seçilməsini, sonra onun üzərində oymanın yerinə yetirilməsini, metal qəliblər üçün isə metalı əymək məharəti və naxışın dəqiqliklə təsvir edilməsini tələb edir. **Basma,** naxışın parçanın səthinə vurulması (basılması) üçün usta ("qəlibçi", "tavakeş")

a) "yağ" (rezerv) adlanan xüsusi məhlul hazırlamalı;

b) onu müəyyən hərarətədək qızdırmalı;

c) qəlibi yağa batırmalı;

d) qəlibi parçanın üstünə qoyaraq yüngülcə onu basmalıdır.

**Boyama** prosesin ən mühüm hissəsidir; bu zaman ştamplanmış parça boya ilə dolu qaba ("küp"ə) salınmalı, bir müddət orada saxlanılmalı və bu proses ustanın iş üslubundan asılı olaraq bir neçə dəfə təkrarlanmalı idi. Boya təbii ola bilər. Bu halda onu qaynatmaq lazımdır. Bunun üçün isə müəyyən ağac növlərinin budaqlarını və ya onların qabıqlarını doğramaq, xırdalamaq, sonra onları qaynatmaq lazımdır. Həmçinin, süni və ya təbii boyalarla birlikdə digər boyaqlardan da istifadə etmək olar. Bu işlə "boyaqçı" məşğul olur. Fitri istedada malik ustalar sadalanan bütün bu mərhələləri təkbaşına da yerinə yetirə bilirdilər. Lakin bu hal istisnalıq təşkil edirdi. Bu gün Basqalda Qədir Şəfiyev, Abbasəli Talıbov, Şamaxıda Rafiq Əsgərov, Şəkidə Əmiraslan və Rəşad Şamilovlar məhz belə peşəkar ustalardandırlar.

Boyama yerinə yetirilən yer ("küpxana") hələ qədimdən xüsusi yer hesab edilirdi. Basqal sakinlərinin dediklərinə görə, onların əcdadları inanırdılar ki, boyaqçı Allaha yaxın şəxsdir, ona böyük vergi verilib və o bir çox sirlərdən agahdır. Buna görə də, boyaqçıya nəzir verməklə hər bir adam Allahdan öz problemlərinin həllini diləyə bilərdi. Həmçinin, boyaqların, məsələn, mavi, qırmızı qızılı-oxra rənglərinin şəfaverici xüsusiyyətə malik olmalarına da inanırdılar.

**Kəlağayının hazırlanma mərhələləri (18)**

Kəlağayının hazırlanmasının texnoloji imkanlarını və istifadəsinin mədəni-tarixi xüsusiyyətlərini nəzərə alaraq, onları aşağıdakı növlərə bölmək olar.

1. Dəzgahdan çıxarılan ipək parça termik işlənmədən keçir, xüsusi məhlulda qaynadılır;
2. Qaynadılmış parça qurudulur;
3. Yağ (rezerv) hazırlanır;
4. Usta kəlağayının növünə uyğun qəliblər seçir;
5. Qurudulmuş parçaya naxış vurulur;
6. Məmulat boyaqxanaya daxil olur, burada boya ilə dolu çənə salınır;
7. Məmulat həyətin açıq hissəsinə köçürülür və burada rəng xüsusi məhlullarda bərkidilir;
8. Yağı yuyub çıxarmaq üçün məmulat isti məhlula salınır;
9. Məmulat qurudulur;
10. Məmulat dəqiq, müəyyən olunmuş şəkildə bükülür;
11. Məmulat məngənəyə (pres) qoyulur.





Əgər məmulat çoxrəngli olmalıdırsa, müəyyən mərhələdən sonra o, yenidən emalatxanaya qaytarılır. Burada onun üzərinə yeni naxış vurulur və sonra yenidən boyaqxanaya qaytarılır. Bu proses bir neçə dəfə təkrar oluna bilər.

**Kəlağayının naxışlanma xüsusiyyətləri:**

Məlum olduğu kimi, naxış mədəni əlamətdir (19), yəni onun vasitəsilə kəlağayının hansı mədəniyyətə məxsus olduğunu, nəyə həsr olunduğunu və nə vaxt hazırlandığını dəqiq təyin etmək olar.

Bu səbəbdən, kəlağayının bütün Azərbaycan ərazisində geniş yayılmasını nəzərə alaraq, naxışların bölgələr üzrə təsnifatını, rəng ahəngini və kombinasiyasını müəyyən etmək olar.

Kəlağayının naxış kompozisiyası çoxəsrlik tarixə malik bəzəkdən ibarətdir. (20) Kompozisiyalar konsentrik ola, eləcə də yaylığın bütün ətrafını əhatə edən haşiyə təşkil edə bilər. Haşiyəli, məsələn, "ağzamin" və ya "soğanı" seriyaları ilk baxışdan sadədir, lakin "basmanaxış" boyama texnologiyasını nəzərə alaraq, daha çox vaxt, səliqə və çoxlu material (ehtiyat) tələb edir. Konsentrik kompozisiyanın ("xonçalı") naxışı çoxdur. Və onlarda dünyanın düzümünü təsbit edən qaydalara ciddi riayət olunur. Bu kompozisiyada nəbati və həndəsi bəzəklərin, işarə və simvolların, ünsürlərin tarazlanmış ahəngi vardır. Bu cür kompozisiya Şirvanda, xüsusilə də Basqalda hazırlanmış kəlağayıları fərqləndirir. Buna görə də bu kompozisiyalar "Basqal" adlandırılır. N.S.Əsgərova (21) yazır ki, "Şamaxı rayonundakı kəlağayıçı bütün sahə üzrə naxışları basdığı halda, Şəki, Kirovabad (22) və Qarabağ bölgələrində daha çox naxışlı haşiyəli yaylıqlar hazırlanırdı". Azərbaycan təbiətinin vurğunu olan Səttar Bəhlulzadənin (23) "Kəlağayı ilə natürmort" rəsmində məhz belə kəlağayı öz əksini tapmışdır. Həmçinin, daha çox ("pirqəlib") və ya daha az ("seyrək") (24), kiçik və orta ölçülü ünsürlərlə doldurulmuş sahəni haşiyələyən naxış (haşiyə) da ola bilər. Bu cür kəlağayı Gəncə və Ordubad üçün səciyyəvidir.

Hal-hazırda 130-dan çox qəlib əhalidən satın alınmış, ədəbi məxəzlər və şifahi təsvirlər əsasında yenidən işlənmişdir. Onlardan hər birinin öz adı vardır: məsələn, "Şah", "Şah-buta" və s. "Şah – həyat şəcərəsi", "Şah-güllü" və s. kimi ağac qəliblərə də rast gəlinir. Bu qəliblər ölçü və hazırlanma üsullarına görə bir-birindən fərqlənir. Onlar armud və ya qoz ağacları kimi möhkəm ağac növlərindən oyma üsulu ilə hazırlanır. Ağacdan oyulmuş "bala buta", "küsülü buta", "güllü buta", "hirsli buta", "cüt buta", "hamilə buta", "sevgili buta", "badam buta" və s. kimi nümunələri də göstərmək olar. Belə qəliblər metaldan da hazırlana bilər. Metal qəliblərdə naxışın qrafik aydınlığı daha çox nəzərə çarpır. "Göbək" müstəqil qrupdur. Yalnız ağacdan hazırlanan «göbək»lər adətən mərkəzi dairəvi (xonçalı) kompozisiyada istifadə edilir. Haşiyələrdə istifadə edilən qəliblərin daha bir qrupu haşiyə naxışlı qəliblərdir. "Dik haşiyə", "Nargülü", "Cır nar", "Günəş" və s. ən məşhur növlər hesab olunur. "Ağzamin" kəlağayı üçün , "xarı bülbül", "aypara", "meynə" və s. kimi metal qəliblərdən istifadə edilirdi. (25) "Bəzəkli kəlağayı ustası Əzim Əsgərov" (26) adlı yazıda göstərildiyi kimi, "aldan çıxartma" (boş sahələri dolduran xırda güllər), "gülabzən" (qızılgül suyu üçün bardaq), "pullu qəlib", "şiş papaq", "ceyran göz haşiyə", "çəp gül haşiyə" qeyd edilimişdir. (27) Müxtəlif qəliblər arasında "heyvagülü", "pişikayağı", "yarpaq", eləcə də müxtəlif ölçülü nöqtələr vurmaq üçün qəliblər mövcuddur.

Basqalda yerləşən "Kəlağayı" İpək Mərkəzində kəlağayı hazırlanması ilə yanaşı, həm də tədqiqat işləri aparılır. Burada Kəlağayı İpəyi Muzeyi də təşkil edilmişdir. (28) Bu muzeyin Azərbaycanda və postsovet məkanında analoqu yoxdur. Muzeyin

eksponatları arasında ən mühüm yeri əhalidən satın alınmış qəlib-formalar tutur. Müxtəlif qazıntılar zamanı Basqalın müxtəlif yerlərindən tapılmış bu qəliblərin bəzilərinin 200-300 il yaşı var.

**Kəlağayı naxışlarının mənaları: məcazlar və bənzəmələr**

Kəlağayının hər bir naxış ünsürünün və elementinin əmələ gətirdiyi kompozisiyalar konkret məna çalarlarına malikdir. Kəlağayının naxış semantikası varlığın universal ideyalarını bildirir və rənglə birlikdə emosional cəhətdən dolğun şəxsiyyətlərarası qarşılıqlı təsirin fəzasını yaradır.



6.

Kəlağayı simvolik məna kəsb edir. Bu, sadəcə yaylıq deyil, çox böyük estetik-etik məna tutumuna malik mədəni ünsürdür.

Kəlağayının rəngləri və naxışları ünsiyyət zamanı müəyyən əhval-ruhiyyənin yaranmasına səbəb olur. Məsələn, oynaq naxışlı qırmızı kəlağayı, qayınana və qayınata tərəfindən gəlinə bağışlanan vacib hədiyyələrdən biri idi. Məhz həmin kəlağayını gəlin öz toyunda başına örtməli idi. Qonaqlar bəyin boynuna parlaq rəngli kəlağayılar salardılar. (29) Onların ilk övladları da bu kəlağayıya bükülməli idi. Onu gənc ana 40 gün ərzində belinə sarımalı idi. Yaşlı sakinlərin dediklərinə görə, bu həm də qədd-qaməti şux saxlamağa kömək edirdi. Adi günlərdə, evdən bayıra çıxarkən və ya qonaq qəbul edərkən qadınlar başlarına sakit rəngli, "soğanı", "soldurma", "qəhvəyi" və s. rəngli kəlağayılar örtərdilər. Asketik çərçivəli (haşiyəli) qara kəlağayı qəmgin əhval-ruhiyyəni ifadə edir, parlaq rənglərlə bolluca naxışlanmış kəlağayı isə sevinc və şadlıq hissləri doğururdu. Qədim Azərbaycan adətinə görə, qadın kəlağayısını atdıqda münaqişəni dayandıra bilər. Qız kəbinə razılığını bildirmək məqsədilə ona evlənmək təklifi etmiş gənc oğlana öz kəlağayısını verərdi.

Kəlağayı üzərində istifadə olunan naxış və kompozisiyalar xalçadan fərqlənir. Lakin onlar təkrarsız olmaqla yanaşı, həm də universal xüsusiyyətlərə malikdir. Bu naxışlar eyni bədii mövzunun ifadə vasitələridir. Bu, maralın, balıqların, quşların obrazları, stilizə edilmiş nəbati ünsürlərdir. Bu, həm alovabənzər zərif "buta", həm də Yer üzündə hər bir canlıya həyat verən gizli və ya zahiri enerjinin, Günəşin rəmzi olan məğrur qamətli tovuz quşudur. Ruhun əbədiliyi və davamlılığın rəmzi olan məmulatın bütün kənarları boyu sarmaşan, stilizə edilmiş çiçəklərin, budaqların və bir-birinə hörülmüş forması - "islimi"dir. İnkişaf, birlik və ölməzlik rəmzi olan həyat şəcərəsi "kartaş"dır.

Naxış kompozisiyalarının mənaları qəliblərin adları ilə bağlıdır. Onların hamısı kəlağayının stilistikasına müxtəlif cür, bəzən ciddi qaydalara uyğun, eyni zamanda da ustanın ("tavakeş"in) əhval-ruhiyyəsindən və emosional vəziyyətindən asılı olaraq daxil edilir. Belə ki, konsentrik qrupa aid edilən "Basqal" bəzəkli kəlağayı kompozisiyası ustalar tərəfindən Kainatın mərkəzi, dünyanın mənzərəsi və insan varlığı haqqında təsəvvür kimi izah edilir. Bu təsəvvürlərdə insanın ən yaxşı mühafizəsi ("şah", "şah-buta") dağların ("dik" haşiyə) olduğuna inam, həmçinin bu dünyada fiziki son olduğu halda, ən ali, dağlıq, hətta daha dolğun, rəngarəng və müxtəlif çeşiddə o biri dünyada həyat davam edir. Güman ki, buna görə də bu kəlağayılar çoxrənglidir və onların hazırlanmasında çoxlu müxtəlif qəliblərdən istifadə olunur. «Yeddirəng» kəlağayılar naxış baxımından zəngindir və üzərinə çəkilən hər bir ünsür qırmızı, göy, sarı, yaşıl, ağ, çəhrayı və tünd qəhvəyi rəglərə və ya onların çalarlarına boyanır.



Maraqlıdır ki, bəzəkli kəlağayıdakı dünya mənzərəsi, qədim arxeoloji mədəniyyətlərdə təsbit olunmuş bürünc və keramika məmulatlarındakı obrazlarla həmahəngdir. Təəccüblüdür ki, bu gün də Basqal ustaları öz qəliblərini həmin obrazlara uyğun adlandırırlar. Məsələn, kəlağayının mərkəzinə basılan naxışın qəlibi "göbək" adlanır. Öz-özlüyündə dairənin 1/4-ni təşkil edən bu qəlib konsentrik kompozisiyada müxtəlif tərəfli xaç əmələ gətirir və dünyanın mərkəzi kimi dərk edilir, onun ətrafındakı dairə və yaxud kvadrat isə Kainatla əlaqələndirilir. Bəzi tədqiqatçıların fikrincə, konkret arxeoloji mədəniyyətlərdə "dairənin və ya kvadratın içərisinə yerləşdirilmiş xaçvari rəmzi işarə dünyanın mərkəzi və ya "kosmik göbək" haqqında şamani görüşləri əks etdirir. (30)

Kəlağayının bükülməsi mənalı və ciddi qaydalara tabe olan prosedurdur. Belə ki, birinci 3 bükük uzununa, yenə 3 bükükdən sonra tərəfləri 18-20 sm olan kvadrat əmələ gəlməlidir. Kəlağayıçı nəsillərinin davamçıları olan ustalarla söhbətlərimiz zamanı bu prosedurun mənasına aydınlıq gətirə bildik. Onların dediklərinə görə, təbiət qanunları dəyişməzdir. Kəlağayı isə onun təcəssümü, təbii replikadır. Həyat da təbiət kimi sirlərlə, canlı məxluqlarla, sevinclə, azadlıqla, məhəbbətlə, qüssə ilə doludur və kəlağayı da sehrli ipək sapın yaranmasından tutmuş müxtəlif hazırlanma mərhələlərinədək bütün bu deyilənləri özündə əks etdirmişdir. Təbiətdə bir-biri ilə bağlı ikili başlanğıclar vardır: olum və ölüm, xeyir və şər, həqiqət və yalan. Bunlar insanın alın yazısıdır. Kəlağayının birinci üç büküyü məhz bunu təcəssüm etdirir. Sonrakı üç bükük isə insanın özü üçün müəyyən etdiyini, məhəbbəti və ya nifrəti, gücü və ya zəifliyi, müdrikliyi və ya nadanlığı təcəssüm etdirir. Kəlağayıçıların səsləndirdikləri bu fikirlər xalqın çoxəsrlik təcrübəsini özündə əks etdirmişdir. Təəccüblü deyil ki, bu fikirlər, XX əsrin əvvəllərində E.Frommun insanın ekzistensional və tarixi dixotomiyası (ikiyə bölünməsi) haqqında söylədiyi fikirləri ilə eyniyyət təşkil edir. Çünki, o universaldır. "Əgər o (insan) həqiqətin üzünə tələssiz baxırsa, onun öz qüvvəsini açmaqla, məhsuldar yaşamaqdan başqa məna görmür... Yalnız o, özünün mövcudluğuna xas olan vəziyyətini, dixotomiyanı və öz qüvvəsini aşkar etmək bacarığını dərk edirsə, o, bu vəzifənin öhdəsindən uğurla gələ biləcək, olduğu kimi qalmaq və özü üçün yaşamaq, istedadını tam reallaşdırmaq, onun xüsusiyyətini təşkil edən ağıl, məhəbbət və məhsuldar əməklə xoşbəxtliyə çata bilər" (31).

Kəlağayının inkişaf perspektivləri

2011-ci ildə Basqalda, Şəkidə və Bakıdakı yerli icmanın iştirakı ilə "İnkişaf" Elmi Mərkəzi tərəfindən kəlağayının YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına təqdim edilmək üçün material (C.Tariverdiyev) hazırlanmışdı. Həmin material Mədəniyyət və Turizm Nazirliyinə təqdim edilmiş, dünyanın müxtəlif ölkələrində kəlağayının təbliği və yayılması üçün nazirlik tərəfindən mühüm addımlar atılmışdır. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və YUNESKO-nun Milli Komitəsi bu işdə böyük köməklik göstərmişlər. Bütün bunlar Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsinə və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın şəxsi səylərinin realizə edilməsinə, Azərbaycanın mədəni irsinin qorunub saxlanmasına yönəldilmişdir.

2014-cü ilin 26 noyabrında kəlağayı, "Ənənəvi sənət və kəlağayı simvolizmi, qadın baş örtüklərinin hazırlanması və örtülməsi" kimi YUNESKO-nun Reprezentativ siyahısına daxil edilmişdir. Bu da kəlağayı mədəni fenomenin qorunub saxlanılması üzrə səylərin və keçirilmiş tədbirlərin məhsuldarlığını bir daha təsdiq etdi. (32)

Bir çox jurnallarda Azərbaycanda kəlağayı istehsalına və Basqaldakı "Kəlağayı" Muzeyinə aid məqalələr dərc olunmuşdur. «Баку» (Москва, 2009, 2010,2013), «World of Azerbaijan» (Баку,2005), «Yol» (Баку, 2007), «Новые берега» (Москва, 2008), «Passage» (Баку, 2004,2010), "Visions of Azerbaijan" (33) (2011) və s. bu qəbildən olan nəşrlərdəndir. Bu barədə Wikipediada (34) da məlumat var, İndoneziyada nəşr olunan "The Jakarta Post" qəzeti batik, o cümlədən də Basqalda

aparılan işlər barədə geniş material təqdim etmişdir. Burada da həmin texnikadan fəal surətdə istifadə edən 11 ölkə sırasında Azərbaycandan da bəhs olunur. 2013-cü ildə London Universitetində "Azərbaycanda batik" təqdimatı zamanı, kəlağayıya, onun tarixinə və hazırlanma üsuluna geniş yer verilmişdir. (35) 1 dekabr 2014-cü il tarixində Sofiyada Azərbaycanın Bolqarıstandakı səfirliyi, Sofiya şəhər bələdiyyə idarəsi və Bolqarıstanın Xarici İşlər Nazirliyinin Mədəniyyət İnstitutu tərəfindən kəlağayının interaktiv təqdimatı keçirilmişdi. (36) İştirakçılar kəlağayı barədə məlumatlandırılmış, sənədli kliplərə tamaşa etmiş, saya və rəngli ipək üzərinə qədim qəliblərin köməyilə basma prosesini reallaşdıra bilmişlər. 2014-cü ilin 18 dekabrında Xalça Muzeyində (Bakı) kəlağayı UNESKO-nun Reprezentativ Siyahısına daxil edildikdən sonra, ilk dəfə «Kəlağayım - mənim əlvan örpəyim» adlı sərgi keçirilmişdir. Belə sərgilərin, təqdimatların və ustad dərslərinin Azərbaycanın müxtəlif bölgələrində keçirilməsi nəzərdə tutulur. Kəlağayının hazırlanmasında bacarıqların formalaşması və inkişaf etdirilməsi üçün tədris blokunun yaradılması mühüm əhəmiyyət kəsb edir.

Yuxarıda söylənilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, kəlağayı Azərbaycan mədəniyyətinin səciyyəvi etnik xüsusiyyətə malik bir göstəricisi, xalq tətbiqi sənətinin nümunəsidir.

**Mənbələr və izahlar:**


1. Çıraqzadə V.A. Qədim ipəkçilik diyarı. Bakı, 1988
2. Эфендиев Р. Декоративно-прикладное искусство Азербайджана (средние века), Москва, 1976.
3. Керимов Л.Г. Азербайджанский ковер. Том II, Баку, Гянджлик, 1983
4. Yenə orada.
5. Hazırda Azərbaycan kəlağayı istehsalında "isti " texniki üslubundan istifadə edən ölkələrdəndir ki, bu da "basmabaxış" texniki üslubunun bənzəridir. Bax: http://simple.wikipedia.org/wiki/
6. V.A.Çıraqzadə. Qədim ipəkçilik diyarı. Bakı, 1988
7. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. Собрал и издал в русском переводе В.В.Латышев. Спб., 1893, т.1, стр.7
8. Эвлия Челеби .Книга путешествий (Извлечения из сочинения турецкого путешественника XVII века) Вып.3. Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана. М.Наука. 1983.
9. Шавров Н.Н.
10. www. azcongress.ru/2009/08/23
11. Курбанова Ч. Шелк Азербайджана в торгово-дипломатических отношениях Сефевидского государства со странами Европы в 1 половине XVII в. Диссертация. Баку, 1984
12. Çıraqzadə V.A. Qədim ipəkçilik diyarı. Bakı, 1988
13. Bu miqdar ipəyin bir ildə göndərilməsi nəzərdə tutulur (R.İ.)
14. Сумбатзаде А.С.. Промышленность Азербайджана в XIX веке. Баку, 1964
15. Аскерова Н.С. Мастер узорной келагаи Азим Аскеров. В сб.ст. Народные мастера: традиции и школы. вып. 1 / под ред. М. А. Некрасовой; Акад. художеств СССР, НИИ теории и истории изобраз. искусств. М.,1985.
16. Basqal. Azərbaycan Sovet Ensiklopediyası, Bakı, 1978
17. Bəsləsən ipək olar. Tərtibçilər: Tariverdiyev C., İbrahimbəyova R. Bakı, 2004
18. Джалил Тариведиев. Музей шелка «Келагаи». Концепция и история создания. Баку, 2012
19. Заур Гасанов. Царские Скифы. Этноязыковая идентификация «царских скифов» и древних огузов. Liberty Publishing House, New York. 2002.
20. Эфендиев Р. Декоративно-прикладное искусство Азербайджана (средние века), Москва, 1976.
21. Н.С.Аскерова. Мастер узорной келагаи Азим Аскеров. В сб.ст. Народные мастера: традиции и школы. вып. 1 / под ред. М. А. Некрасовой; Акад. художеств СССР, НИИ теории и истории изоб. искусств. М.,1985.





22. İndiki Gəncə
23. Ç.Fərzəliyev. Natürmort janrı haqqında. Bakı, 2003; П.Абдинова. Певец природы - народный художник Азербайджана Саттар Бахлулзаде (1909-1974). Вестник Национальной Академии Наук Республики Казахстан. №6, 2011.
24. Н.С.Аскерова. Мастер узорной келагаи Азим Аскеров. В сб.ст. Народные мастера: традиции и школы. вып. 1 / под ред. М. А. Некрасовой; Акад. художеств СССР, НИИ теории и истории изобраз. искусств. М.,1985.
стр. 231
25. Келагаи. Каталог. Sada. 2003
26. Н.С.Аскерова. Мастер узорной келагаи Азим Аскеров. В сб.ст. Народные мастера: традиции и школы. вып. 1 / под ред. М. А. Некрасовой; Акад. художеств СССР, НИИ теории и истории изобраз. искусств. М.,1985.
27. Yenə orada
28. R.Əfəndiyev, T.Əfəndiyev Azərbaycan incəsənəti dünya müzeylərində. Bakı, 2009
29. Эта, распространенная в прошлом традиция, известна представителям многих регионов Азербайджана, более того, она продолжает действовать и сегодня в некоторых из них. Так, нам довелось наблюдать ее воочию в поселке Баскал Исмаиллинского района (авт.).
30. Заур Гасанов. Шаманистические обряды и атрибуты в археологии Украины, Венгрии и Азербайджана в период поздней бронзы и раннего железа (мировоззрение киммерийцев). http://www.eurasica.ru/articles/library/zaur_gasanov
31. Эрих Фромм. Человек для себя. Исследование психологических проблем этики. http://psylib.org.ua/books/fromm04/index.htm
32. Traditional art and symbolism of Kelaghayi, making and wearing women's silk headscarves. Inscribed in 2014 (9.COM) on the Representative List of the Intangible Cultural Heritage of Humanity.Country(ies): Azerbaijan. www.unesco.org
33. A Silken Journey - exploring Azerbaijan's hinterland. By Fiona Maclachlan. \www.visions.az/culture,325/
34. http://simple.wikipedia.org/wiki/
35. World Eco-Fiber and Textile (WEFT) Art "Selembar Benang Menjalin Alam"- A Thread That Links the World Textile Art Exhibition and Symposium, Brunei Gallery, School of Oriental and African Studies (SOAS) University of London (17 January -23 March 2013). www.sosietyatelier.com
36. Kəlağayı böyük bir aləmdir. Gözəl Ağayeva, Tərgül Ağayeva, 6 dekabr 2014, Bakı. www.azertag.az



*R.Ibrahimbeyova*
*J.Tariverdiyev*
*Z. Muller Tariverdi*


**KELAGAYI**


***Key words:*** *kelagayi, silk, head scarf, hand made, cultural phenomenon, ornamentation, symbols*


**Summary**


The article features kelagayi (headscarf), one of Azerbaijani women's traditional clothing. The article presents kelagayi as a phenomenal art piece. Experts have researched functional, structural and aesthetic properties of kelagayi. The author has applied and granted with patent and copyright of this article.



*Р.Ибрагимбекова*
*Дж.Таривердиев*
*З.Мюллер Тариверди*


**КЕЛАГАИ**


***Ключевые слова:*** *келагаи, шелк, головной платок, культурный феномен, орнаментирование, символика*


**Резюме**


Предметом данной статьи является концепция келагаи – одного из элементов традиционного костюма азербайджанской женщины. Цель автора – определить и обосновать ценность келагаи как культурного феномена. Функциональные, технологические, структурные и эстетические особенности келагаи рассматриваются в историческом плане, в контексте их развития на современном этапе.

Статья была представлена в соответствующую государственную структуру, и на нее оформлено авторское право.